# ƏSGƏROVA GÜLTƏKİN MƏLİK QIZI



Əsgərova Gültəkin 20 noyabr 1960-cı ildə Bakı şəhərində dünyaya göz açmışdır. 1978-ci ildə Nərimanov rayonundakı 200 saylı orta məktəbi əla qiymətlərlə bitirmişdir. 1983-cü ildə Azərbaycan Dövlət Tibb Universitetinə daxil olmuş və təhsilini 1989-cu ildə başa vurmuşdur. Təhsil aldığı illərdə Daxili İşlər Nazirliyinin Hərbi hospitalında əvvəlcə kiçik tibb bacısı, sonra isə böyük tibb bacısı işləmişdir. Ali məktəbi bitirdikdən sonra isə 8-ci Təcili Yardım Stansiyasında, daha sonra Uroloji xəstəxanada anestezioloq-reanimatoloq vəzifəsində çalışmışdır. Dağlıq Qarabağ hadisələri zamanı o, 4 aprel 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanır. Əvvəlcə Turşsuda, sonra isə Şuşada gedən döyüşlərdə yaralı döyüşçüləri təhlükəsiz yerlərə aparır, onlara ilk tibbi yardım göstərir. Şuşa alındıqdan sonra Laçının, Qubadlının müdafiəsində yaxından iştirak edir. Uzun döyüş yolu keçmiş Gültəkin Əsgərova 20 iyun 1992-ci ildə Aranzəmin-Naxçıvanik istiqamətində gedən ağır döyüşdə öz xidməti borcunu yerinə yetirərkən həlak olmuşdur. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir qızı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 20 noyabr 1993-cü il tarixli 31 saylı fərmanı ilə Əsgərova Gültəkin Məlik qızı ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Oxuduğu 200 saylı tam orta məktəbə onun adı verilmiş, büstü qoyulmuşdur. Xəzərdə üzən gəmilərdən biri qəhrəmanın adını daşıyır, gəmidə muzeyi yaradılmışdır. Bakının Nərimanov rayonundakı xəstəxananın önündə büstü qoyulmuşdur.